

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

# ŞƏRQ qapısı

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 140 (23.302)

*30 iyul 2019-cu il, çərşənbə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 29-da Fransanın İqtisadiyyat və Maliyyə naziri Brüno Lö Merin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Prezident İlham Əliyev iqtisadi əməkdaşlığımızın uğurla inkişaf etdiyini bildirərək bu baxımdan biznes əlaqələrinin və biznes nümayəndələrinin qarşılıqlı səfərlərinin önəmini qeyd edib. Dövlətimizin başçısı fransız şirkətlərinin Azərbaycandakı səmərəli fəaliyyətini qeyd edərək, onların sayının artmasından məmnunluğunu ifadə edib. Prezident İlham Əliyev investisiya sahəsində də yaxşı əməkdaşlığın həyata keçirildiyini vurğulayıb. Dövlətimizin başçısı Fransanın İqtisadiyyat və Maliyyə naziri Brüno Lö Merin ölkəmizə səfərinin əlaqələrimizin daha da inkişaf etdirilməsinə töhfə verəcəyinə ümidvar olduğunu bildirib.

Fransanın İqtisadiyyat və Maliyyə naziri Brüno Lö Mer Bakının abadlığının və inkişafının onlarda xoş təəssürat doğurduğunu vurğulayıb. O, Fransa tərəfinin Azərbaycanla siyasi və iqtisadi sahələrdə əməkdaşlığı genişləndirməkdə maraqlı olduğunu deyib.

Söhbət zamanı Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı Azərbaycanın mövqeyi bir daha vurğulanıb, münaqişənin nizama salınması ilə əlaqədar fikir mübadiləsi aparılıb.

Görüşdə neft, qaz, nəqliyyat, infrastruktur, ekologiya və digər sahələrdə əməkdaşlıq və görüləcək işlər müzakirə edilib.



## "Muzey günləri" davam etdirilir



*Xalqın tarixi, elmi və mədəni abidələrinin, maddi və mənəvi dəyərlərinin qorunması, saxlanılması, təbliğ edilməsi və gələcək nəsillərə ötürülməsində qiymətli sərvətlər qalereyası hesab olunan muzeylərin müstəsna əhəmiyyəti vardır. Muxtar respublikanın nazirlik, komitə və baş idarələrinin kollektivlərinin "Muzey günləri" çərçivəsində cari ildə həmin mədəniyyət müəssisələrimizi ziyarətləri də milli-mədəni irsimizin öyrənilməsi və təbliğinə xidmət edir.*

İyulun 27-də Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzinin və Naxçıvan Muxtar Respublikasının Gənclər Fondunun kollektivləri Naxçıvan şəhərində fəaliyyət göstərən Xatirə Muzeyində olublar.

Muzeyin baş fond mühafizi Leyla Məmmədova bildirib ki, bu mədəniyyət müəssisəsi Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı ilə 1997-ci ildə yaradılıb, 2000-ci ilədək Şəhidlər Muzeyi, həmin ilin 8 avqust tarixindən Xatirə Muzeyi kimi fəaliyyət göstərir. Ermənilər tərəfindən törədilən soyqırımı qurbanlarının, Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda döyüşlərdə həlak olmuş naxçıvanlıların xatirəsinin əbədiləşdirildiyi muzey 2014-cü ildən Şəhidlər xiyabanı yaxınlığında yerləşən yeni binada fəaliyyət göstərir.

Qeyd edilib ki, ötən əsrin əvvəllərindən başlayaraq təcavüzkar erməni daşnaklarının azərbaycanlılara qarşı törətdikləri dəhşətli cinayətlərin izləri buradakı eksponatlarda öz əksini tapıb. Muzeydə, ümumilikdə, 2 minədək eksponat var ki, bunlardan 400-ə yaxını ekspozisiya zalında nümayiş olunur. Bu eksponatlar içərisində Azərbaycanın Milli qəhrəmanlarının, ölkəmizin suverenliyi və ərazi bütövlüyü uğrunda döyüşlərdə həlak olanların fotoşəkilləri və şəxsi əşyaları, həmçinin qəhrəmanlıq tariximizin müxtəlif dövrlərinə aid kitablar da nümayiş etdirilir.

Vurğulanıb ki, Azərbaycanda baş verən soyqırımlara ilk siyasi-hüquqi qiyməti ümummilli lider Heydər Əliyev verib. Bir-birinin davamı olan 1918-ci il 31 mart, 1990-cı il 20 Yanvar, 1992-ci il 26 fevral faciələri ilə bağlı ulu öndər Heydər Əliyevin imzaladığı sərəncamların surətləri qiymətli sənədlər kimi muzeydə saxlanılır. Bu sənədlər görkəmli dövlət xadiminin xalqımızın şərəfli tarixinə böyük ehtiramının ifadəsi kimi diqqəti çəkir.

Qeyd edək ki, həmin gün Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin kollektivi Qarabağlar Türbə Kompleksində, Ali Məhkəmənin kollektivi isə Cəmşid Naxçıvanskinin ev-muzeyində olublar.

Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin əməkdaşları "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksini, Dövlət Təhlükəsizliyi Xidmətinin əməkdaşları Naxçıvan Dövlət Xalça Muzeyini, Naxçıvan Muxtar Respublikası Prokurorluğunun əməkdaşları "Əlincəqala" Tarix-Mədəniyyət Muzey Kompleksi və Gülüstan türbəsini, Ədliyyə Nazirliyinin əməkdaşları "Xan Sarayı" Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksini, Fövqəladə Hallar Nazirliyinin əməkdaşları Ədəbiyyat Muzeyini, Dövlət Gömrük Komitəsinin əməkdaşları Naxçıvan Dövlət Tarix Muzeyini, İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman) Aparatının əməkdaşları Dövlət Bayrağı Muzeyini, Maliyyə Nazirliyinin kollektivi Heydər Əliyev Muzeyini, Vergilər Nazirliyində fəaliyyət göstərənlər Bəhruz Kəngərli Muzeyini, İqtisadiyyat Nazirliyinin əməkdaşları Nəbatat bağını, Nəqliyyat Nazirliyinin kollektivi Naxçıvan Dövlət Rəsm Qalereyasını, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin əməkdaşları Cəlil Məmmədquluzadənin ev-muzeyini, Kənd Təsərrüfatı Nazirliyinin kollektivi Hüseyn Cavidin ev-muzeyi və xatirə kompleksini, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın əməkdaşları Naxçıvan Duz Muzeyini, Dövlət Miqrasiya Xidməti, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti və Dövlət Baytarlıq Xidmətinin kollektivləri isə Naxçıvan Biznes Mərkəzini ziyarət ediblər.

✍ **Güntac ŞAHMƏMMƏDLİ**

## Muxtar respublikanın dövlət qurumlarına xidməti avtomobillər və kommunal müəssisələrə konteynerlər təqdim olunub







Bu münasibətlə keçirilən tədbirdə Naxçıvan Muxtar Respublikası Baş nazirinin müavini – Maliyyə naziri Səbuhi Məmmədov çıxış edərək bildirib ki, son illər muxtar respublikada həyata keçirilən tikinti-quruculuq tədbirlərinin həcmi xeyli genişləndirilib, yaşayış məntəqələri müasirliyə, gözəlliyə qovuşub. Bu abadlığın və səliqə-sahmanın qorunması qarşıda duran başlıca vəzifələrdəndir. Ona görə də muxtar respublikada kommunal xidmətlərin səviyyəsinin yaxşılaşdırılması istiqamətində ardıcıl tədbirlər görülür, yeni texnika və avtomobillər alınıb təqdim olunur.

Tədbirdə Babək rayonunun Nehrəm və Cəhri kənd inzibati ərazi dairələri üzrə nümayəndəlik və bələdiyyələrinə, Sədərək rayonunun Heydərabad qəsəbəsi inzibati ərazi dairəsi üzrə nümayəndəliyinə xidməti istifadə üçün "NAZ-Lifan" markalı yeni minik avtomobilləri təqdim edilib.

Naxçıvan Muxtar Respublikası Baş nazirinin müavini – Maliyyə naziri Səbuhi Məmmədov bununla bağlı bildirib ki, muxtar respublikada dövlət qurumlarının fəaliyyəti üçün lazımi şərait yaradılır, yeni inzibati binalar tikilərək istifadəyə verilir, onların maddi-texniki bazası möhkəmləndirilir. Bu tədbirlərin həyata keçirilməsində əsas məqsəd əhaliyə göstərilən xidmətin səviyyəsini yüksəltməkdir. Bu gün 4 dövlət qurumuna xidməti avtomobillərin verilməsi də bu istiqamətdə görülən işlərin davamıdır.

Səbuhi Məmmədov yeni xidməti avtomobillərin idarətmədə işin keyfiyyətini yüksəldəcəyinə inamını ifadə edib, bu sahədə çalışan kollektivlərə uğurlar arzulayıb.

Qeyd edilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığına əsasən kommunal müəssisələrin, bələdiyyələrin, yerli icra orqanlarının maddi-texniki bazasının möhkəmləndirilməsi daim diqqət mərkəzində saxlanılır. 2017-ci ilin əvvəlindən etibarən kənd yaşayış məntəqələrində məişət tullantılarının yığılması, daşınması və zərərsizləşdirilməsi xidmətlərinin bələdiyyələr tərəfindən həyata keçirilməsinə başlanılıb və bu layihə uğurla davam etdirilir. Yeni məişət tullantıları konteynerlərinin təqdim olunması da bu istiqamətdə həyata keçirilən tədbirlərin tərkib hissəsidir.

Qeyd edək ki, gətirilən 200 ədədi 1 kubmetr, 300 ədədi isə 0,4 kubmetr tutuma malik olan, ümumilikdə, 500 yeni konteynerdən 40-ı Naxçıvan Şəhər Sanitar-Təmizlik İdarəsinə, qalanları isə muxtar respublikanın bütün rayon inzibati ərazi dairələri əhatə olunmaqla yerlərdə fəaliyyət göstərən Kommunal Müəssisələr kombinatları və bələdiyyələrə verilib.

✍ **Səbuhi HƏSƏNOV**

## Torpaqların elektron uçotunun aparılması ilə bağlı müşavirə keçirilib



Şahbuz Rayon İcra Hakimiyyətində rayonunda keçirilən müşavirəni giriş sözü ilə rayon İcra Hakimiyyətinin başçısı Rəfael Babayev açıb.

Bildirilib ki, Ali Məclis Sədri tərəfindən verilmiş tapşırıqların icrasına uyğun olaraq muxtar respublikamızın bütün bölgələri ilə yanaşı, Şahbuz rayonunda da torpaqlardan səmərəli istifadə diqqətdə saxlanılır. Ötən müddətdə rayonda əkinəyararlı torpaq sahələrinin müəyyənləşdirilərək əkin dövriyyəsinə daxil edilməsi istiqamətində ardıcıl tədbirlər davam etdirilib, bələdiyyə torpaqlarından istifadə vəziyyəti və onlara nəzarət işi diqqətdə saxlanılıb. Nəticədə, 2016-2018-ci illərdə 6,99 hektar torpaq sahəsində qanunsuz inşa edilmiş 103 tikili sənədləşdirilərək vətəndaşların mülkiyyətinə verilib, qanunsuz zəbt edilmiş 14,46 hektar torpaq sahəsi əvvəlki vəziyyətinə qaytarılıb. Bundan əlavə, 2019-cu ilin altı ayında 0,73 hektar torpaq sahəsində qanunsuz inşa edilən 3 tikili sənədləşdirilərək vətəndaşların mülkiyyətinə verilib, zəbt olunmuş 0,37 hektar torpaq sahəsi əvvəlki vəziyyətinə qaytarılıb.

Muxtar respublikada torpaqlardan səmərəli istifadə sahəsində həyata keçirilən tədbirlərdən bəhs edən Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin sədri Müslüm Cabbarzadə qeyd edib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasında torpaq münasibətlərinin tənzimlənməsi sahəsində əlavə tədbirlər haqqında" 2016-cı il 2 aprel tarixli Fərmanı torpaqların elektron uçotunun aparılması yolu ilə torpaq ehtiyatlarından daha səmərəli istifadənin təmin edilməsi üçün olduqca mühüm əhəmiyyətə malikdir. Fərmandan irəli gələn vəzifələrin icrası məqsədilə işlər yekunlaşmaq üzrədir. Artıq Şahbuz rayonunda da planlaşma işlərinə start verilib. Görüləcək işlər nəticəsində torpaq sahələrinə dair hüquqi və texniki sənədlərdəki məkan göstəriciləri ilə torpaqlardan faktiki istifadə vəziyyətinin məkan göstəriciləri arasında mövcud uyğunsuzluqların aradan qaldırılması, torpaq fondunun təyinatı, istifadə növü, kəmiyyət və keyfiyyət göstəriciləri üzrə dəqiq və müfəssəl kadastr güclənəcək, torpaq idarəçiliyinin iqtisadi mexanizmlərinin təkmilləşdirilməsi üçün geniş imkanlar yaranacaq.

Müşavirədə çıxışlar olub. Qeyd edilib ki, rayonun əhatə etdiyi 22 bələdiyyə üzrə aparılacaq planaalma işlərinin 3 ay ərzində başa çatdırılması nəzərdə tutulub.

Sonda müşavirə iştirakçılarının sualları cavablandırılıb, müzakirələr aparılıb.

**Hicran ƏLİYEVA**

## “İstehlak Mallarının Ekspertizası Mərkəzi” Məhdud Məsuliyyətli Cəmiyyəti yerli məhsulların ixracına öz töhfəsini verir

*Bu gün ölkəmizdə dünyada baş verən iqtisadi çağırışlara adekvat cavab verilməsi, milli iqtisadiyyatın dünya iqtisadiyyatına inteqrasiyası mühüm istiqamət kimi qarşıya qoyulub. Sahibkarlıq fəaliyyətinin dəstəklənməsi, prioritet sənaye sahələrinin müəyyən olunması, ixracyönümlü yerli məhsulların həcminin artırılması son illərdə aparılan iqtisadi islahatların əsas tərkib hissəsini təşkil edir. Aydın məsələdir ki, iqtisadiyyatın şaxələndirilməsində, yerli məhsulların dünya bazarına çıxarılmasında və bunun da müqabilində ölkəyə valyuta axınının təmin olunmasında ən mühüm məsələlərdən biri rəqabətqabiliyyətli məhsul istehsalıdır.*



Rəqabətqabiliyyətlilik isə bir neçə faktora əsaslanır ki, onlardan da biri və ən əsası keyfiyyət amilidir. Xüsusilə ərzaq məhsullarının keyfiyyətinə nəzarətin beynəlxalq normalara uyğun aparılması ixracatda iqtisadi etalon kimi qəbul olunur. Məhz bunun nəticəsidir ki, muxtar respublikada fəaliyyətə başlayan yerli istehsal müəssisələrində müasir texnoloji avadanlıqların tətbiqi, keyfiyyətli məhsul istehsalı və bu məhsullara nəzarət tədbirləri daim diqqət mərkəzində saxlanılır.

2001-ci ildən muxtar respublikada fəaliyyət göstərən “İstehlak Mallarının Ekspertizası Mərkəzi” Məhdud Məsuliyyətli Cəmiyyətinin əsas iş prinsipi məhsulların keyfiyyətinin və təhlükəsizliyinin təmin edilməsi sahəsində dövlət nəzarətini təmin etməkdən ibarətdir. Bunun üçün ötən dövrdə cəmiyyətin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirilib, ABŞ, Almaniya, İngiltərə, Polşa, İtaliya, Türkiyə istehsalı olan, beynəlxalq standartlara uyğun laboratoriya avadanlıqları alınıb quraşdırılıb. Laboratoriyada mütəmadi olaraq yerli və idxal məhsullarından nümunələr götürülərək təhlillər aparılır. Muxtar respublikada ilk beynəlxalq akkreditasiyalı laboratoriya olan “İstehlak Mallarının Ekspertizası Mərkəzi” MMC-nin Mərkəzi Qida Sınaq Laboratoriyası regionumuzda istehsal edilən və ya muxtar respublikaya idxal olunan qida məhsullarının beynəlxalq tələblərə uyğun yoxlanılmasını təmin edir, istehsalçı müəssisələrin xarici ölkələrə məhsul ixracını asanlaşdırır.

Laboratoriyada məhsulların keyfiyyətinə nəzarət beynəlxalq qaydalara uyğun olaraq aparılır. Burada İSO 17025 standartı üzrə beynəlxalq akkreditasiyasının istiqamətində yekun audit yoxlamaları keçirilib və Latviya Respublikasının LATAK akkreditasiya orqanının qərarına əsasən laboratoriya LATAK-T-492-00-2014 nömrəsi ilə qeydiyyata alınaraq İSO/IEC 17025:2005 standartı üzrə akkreditasiyası başa çatdırılıb. Audit yoxlamalarından sonra cəmiyyətin Mərkəzi Qida Sınaq Laboratoriyasına 27 yanvar 2023-cü il tarixədək qüvvədə olan növbəti beynəlxalq akkreditasiya sertifikatı təqdim edilib.

Yeyinti məhsullarının keyfiyyətinin və təhlükəsizliyinin təmin edilməsi sahəsində aparılan dövlət nəzarətinin bir hissəsini də yerli istehsal və idxal məhsullarının orqanoleptik, fiziki-kimyəvi, mikrobioloji, radioloji və toksikoloji göstəricilərinin yoxlanması təşkil edir.

Cəmiyyətdən verilən məlumata görə, 2019-cu ilin 6 ayı ərzində 444 halda hüquqi və 501 halda fiziki şəxslər tərəfindən daxil olmuş 64 mal çeşidini əhatə edən 400 halda səyyar və 945 halda mal nümunəsi laboratoriya analizindən keçirilib, aparılmış laboratoriya təhlilləri, əsasən, 684 yerli istehsal məhsullarını və 261 idxal məhsullarını əhatə edib. Nəticədə, 940 halda məhsulun keyfiyyət göstəricilərinin normativ-texniki sənədlərin tələblərinə cavab verdiyi, 5 halda mal nümunəsinin keyfiyyət göstəricilərinin aşağı olduğu müəyyən edilib.



2019-cu ilin altı ayı ərzində muxtar respublikada istehsal olunan məhsulların ixracı məqsədilə “Ləzzət Biskvit və Şokolad Fabriki” MMC-yə “Lay-lay” vafli məhsullarının Türkiyə Respublikasına aparılması üçün 5 halda, “Lay-lay” vafli məhsullarının Gürcüstan Respublikasına aparılması üçün 2 halda, “Naxçıvan Gəmiqaya Daş Məhsulları Sənaye Kompleksi” MMC-yə travertin və mərmərin Gürcüstan Respublikasına aparılması üçün 9 halda, “Cahan Tabak Beynəlxalq” MMC-yə siqaret məhsullarının Azərbaycan Respublikasına aparılması üçün 2 halda, tütün nümunəsinin Belçika Krallığına aparılması üçün 1 halda, filtrli siqaretlərin Səudiyyə Ərəbistanına aparılması üçün 2 halda, yerli tütünün Türkiyə Respublikasına aparılması üçün 1 halda, filtrli siqaretlərin Qırğızıstan Respublikasına aparılması üçün 2 halda, “Miraj Gold” MMC-yə gümüş zinət əşyasının İspaniya Krallığına ixrac etməsi üçün 2 halda mənşə sertifikatı verilib. Bununla yanaşı, “Cahan Pen” MMC PVC qapı, pəncərə profili, boru və radiatorların Türkiyə Respublikasına aparılması üçün 1 halda, “Cahan İnşaat” MMC plastik qapı, pəncərə şüşəsi və aksesuarların Gürcüstan Respublikasına aparılması üçün 1 halda, “Dizayn İnşaat” MMC alüminium külçələrin Türkiyə Respublikasına aparılması üçün 2 halda, “Babək Sirab” ASC “Sirab” mineral sularının Küveyt dövlətinə aparılması üçün 1 halda, “Sirab” mineral sularının Türkiyə Respublikasına aparılması üçün 6 halda, “Gəmiqaya Mineral Sular” MMC mineral sularının İraq Respublikasına aparılması üçün 2 halda mənşə sertifikatı ilə təmin olunub. Eyni zamanda “Cahan Sənaye Kompleksi” MMC-yə inşaat materiallarını Rusiya Federativ Respublikasına ixrac etməsi üçün 1 halda, “Naxçıvan Sement Zavodu” MMC-yə sement məhsulunu Gürcüstan Respublikasına ixrac etməsi üçün 2 halda, Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin Bioresurslar İnstitutuna yabanı bitki toxumu və kökləri nümunələrinin Niderland Krallığına aparılması üçün 1 halda mənşə sertifikatı verilib. Bəhs olunan dövrdə, ümumilikdə, 43 halda mənşə sertifikatının verilməsi təmin edilib. Bunlardan 17-si CT-1 formalı, 22-si ümumi formalı və 4-ü isə A formalıdır.

Qeyd edək ki, muxtar respublikada fəaliyyət göstərən və ərzaq məhsullarının istehsalı ilə məşğul olan sahibkarlıq subyektləri istehsal etdikləri məhsulların laboratoriya göstəricilərinin yoxlanılmasının beynəlxalq standartlar səviyyəsində həyata keçirilməsi və ixrac olunan məhsulların keyfiyyətinin yoxlanılması üçün laboratoriyanın xidmətlərindən istifadə edə bilərlər. Bu həm sahibkarların istehsal etdikləri məhsulların keyfiyyəti haqqında məlumatlandırılmasına, həm də onların ixraca təşviqi baxımından faydalıdır.

Göründüyü kimi, cari ilin 6 ayı ərzində mənşə və keyfiyyət sertifikatları ilə təmin olunan müəssisə və fiziki şəxslər, əsasən, ixracyönümlü məhsul istehsal edən sahibkarlar və ya sahibkarlıq subyektləridir. Həmçinin məhsulların növləri də muxtar respublikamızda daha fərqli ixracyönümlü məhsulların istehsal edildiyini göstərir. Ümidvarıq ki, yerli sahibkarlar bundan sonra da muxtar respublikada fəaliyyət göstərən bu laboratoriyanın imkanlarından istifadə edəcək, yerli məhsulların ixracına öz töhfələrini verəcəklər.

**Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidməti**

---

*Dövlət proqramı necə icra olunur?*

## Sağlamlıq imkanları məhdud uşaqlar dövlət qayğısı ilə əhatə ediliblər

***Muxtar respublikada yaşayan bütün uşaqlar, o cümlədən sağlamlıq imkanları məhdud uşaqlar hər zaman dövlət qayğısı ilə əhatə olunurlar. Onların hərtərəfli inkişafı, cəmiyyətə adaptasiya və inteqrasiyası, təhsil hüquqlarının təmin olunması diqqət mərkəzində saxlanılır.***



Bu kateqoriyadan olan uşaqların layiqli vətəndaş kimi formalaşması, cəmiyyətə inteqrasiyası, təhsilə cəlbinin davamlılığının təmin edilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq olunmuş “2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı”nın icrası ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi ardıcıl tədbirlər həyata keçirir.

Komitə tərəfindən mütəmadi olaraq sağlamlıq imkanları məhdud uşaqların ailələri ilə sıx əlaqə saxlanılır, uşaqların əlillik göstəricisi və səbəbləri araşdırılır, onların potensiallarına uyğun olaraq məktəb, məktəbəqədər və məktəbdənkənar təlim-tərbiyə müəssisələrinə getmələri tövsiyə edilir.

Cari ilin ötən dövrü ərzində də komitə tərəfindən bu qəbildən olan uşaqların təlim-tərbiyəsi, hüquqlarının müdafiəsi istiqamətində bir sıra işlər görülüb. Belə ki, muxtar respublika üzrə 18 yaşadək sağlamlıq imkanları məhdud olan 1945 uşağın 221-nin məktəbəqədəryaşlı olduğu müəyyənləşdirilib və onlar haqqında məlumat bazası yaradılıb.

Bəhs olunan dövrdə Naxçıvan şəhər Heydər Əliyev adına, Şahbuz şəhər 1 nömrəli və Babək rayon Nehrəm kənd 1 nömrəli tam orta məktəblərində təhsilə cəlb olunmuş sağlamlıq imkanları məhdud uşaqlara qarşı tolerant mühitin yaradılması ilə bağlı həmin uşaqların valideynləri, məktəb direktoru və psixoloqları ilə görüş keçirilib.

Proqramın icrası ilə əlaqədar həmin uşaqların uşaq bağçalarına, ümumtəhsil müəssisələrinə, musiqi, idman, şahmat məktəblərinə və digər məktəbdənkənar müəssisələrə cəlb olunması diqqət mərkəzində saxlanılır. Belə ki, əlaqə yaradılan sağlamlıq imkanları məhdud uşaqlardan 9-u bacarıq və maraqları nəzərə alınaraq musiqi məktəblərinə, məktəbdənkənar müəssisələrin dərnəklərinə, 1 uşaq muxtar respublikada fəaliyyət göstərən idman məktəbinə, 1 uşaq məktəbəqədər müəssisəyə, biri isə Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində təşkil edilmiş məşğələyə cəlb olunub.

Naxçıvan Muxtar Respublikası Mədəniyyət, Təhsil nazirliklərinin və Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin birgə təşkilatçılığı ilə 10 mart – Milli Teatr və 1 iyun – Uşaqları Beynəlxalq Müdafiə Günü ilə əlaqədar Məhəmməd Tağı Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrında Nağı İsmayılzadənin “Ağca və Bozca”, Mirmehdi Seyidzadənin “Qızıl xoruz” tamaşalarına 230 sağlamlıq imkanları məhdud, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş və aztəminatlı ailələrin uşaqları cəlb edilib.

Həmçinin cari ilin bəhs edilən dövründə komitə əməkdaşlarının Naxçıvan Dövlət Televiziyasında, Naxçıvan Dövlət və “Naxçıvanın səsi” radiolarında bu mövzularda çıxışları olub.

Bundan əlavə, Uşaqları Beynəlxalq Müdafiə Günü ilə əlaqədar muxtar respublikada yaşayan hemofiliyalı və talassemiyalı uşaqlara dəstək məqsədilə qanvermə aksiyası və müvafiq kateqoriyadan olan uşaqların tarixi-memarlıq abidələrinə ekskursiyası da təşkil edilib.

Bu gün komitə tərəfindən muxtar respublikada yaşayan sağlamlıq imkanları məhdud uşaqların xəstəliklərinin müvafiq kateqoriyalar üzrə təhlilləri aparılır, muxtar respublikanın rayon və kənd mərkəzlərində qadınlar arasında mütəmadi olaraq maarifləndirici tədbirlər keçirilir.

Proqramın icrası ilə bağlı 2019-cu ilin 6 ayı ərzində komitə tərəfindən bu qəbildən olan 235 uşağın valideynləri ilə əlaqə yaradılaraq maarifləndirici söhbətlər aparılıb. Onlardan 20-si məktəbdənkənar təlim-tərbiyə və müalicə-reabilitasiya müəssisələrinə yönləndirilib.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi proqramın icrasını bundan sonra da diqqət mərkəzində saxlayaraq müvafiq tədbirləri davam etdirəcəkdir.

**Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti**

---

## Hərbi hissəyə 1,5 tona yaxın alma sovqatı aparılıb

*Naxçıvan Muxtar Respublikasında ordumuzun qüdrətinin artırılması istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Bu sahədə qazanılan əsas uğurlardan biri də xalq-ordu birliyinin günbəgün daha da möhkəmləndirilməsidir.*

Bu gün muxtar respublikamızdakı ordu, birləşmə və hissələr hərtərəfli təminata, ən müasir silah-sursata və peşəkar şəxsi heyətə malikdir. Qədim diyarımızın əhalisinin, dövlət qurumlarının, müəssisə və təşkilatların, ayrı-ayrı sahibkarlıq subyektlərinin hərbi hissələrə vaxtaşırı sovqat aparmaları şəxsi heyət tərəfindən onlara qayğı kimi dəyərləndirilir, ruh yüksəkliyi ilə qarşılanır.



Həmin tədbirlərin davamı olaraq “Naxçıvan Dəmir Yolları” Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən Kəngərli rayonundakı “N” hərbi hissəyə 1,5 tona yaxın alma təhvil verilib.

Əsgərlərlə keçirilən görüşdə cəmiyyətin İnfrastruktur İdarəsinin rəisi Aslan Babayev və hərbi hissənin zabiti Qurban Behbudov çıxış edərək muxtar respublikada orduya göstərilən hərtərəfli dövlət qayğısından danışıblar. Çıxış edənlər hərbçilərimizin dövlət tərəfindən qayğı ilə əhatə olunduğunu vurğulayıblar. Onlar bildiriblər ki, yerli təsərrüfat sahiblərinin, sahibkarların, müəssisə və təşkilatların əsgərlərimizi belə sovqat və hədiyyələrlə sevindirmələri xalqımızın ordumuzla həmrəyliyini bir daha bariz şəkildə nümayiş etdirir.



Sonra dəmiryolçular tərəfindən gətirilən alma sovqatı şəxsi heyətə təhvil verilib.

Qeyd edək ki, bundan əvvəl də dəmiryolçular Naxçıvan şəhərindəki “N” hərbi hissəyə 1 tondan çox meyvə aparıblar.

**Xəbərlər şöbəsi**

İmadəddin Nəsimi – 650

# Zərrə boyda Günəş, Günəş boyda zərrə...

*Nəsimi, ey qüdrət sahibi, sən yaqut qədər dəyərli, lakin zamanında layiqli qiymətini almayan, daxilən pakizə, təmiz bir zatın daşıyıcısı, neçələrinin zərrəsinə həsrət olduğu daim parlayacaq Günəşsən...Təvazökar, heç vaxt qürrələnməyən, özünü dərviş və fəqirdən ayrı tutmayan, varlığını hərflərdə tapan, ulu, müqəddəs, qəlbin tərcümanı, yer-göy, hər şey hesab etdiyin, ali saydığın Sözə də sığmayan bir insan, bir şairsən... Zərrə boyda Günəş, Günəş boyda zərrə, zərrədə Günəş, Günəşdə zərrə olmağı bacaransan...*

Azərbaycanın qədim elm ocaqlarından biri olan Şamaxıda dünyaya gəldin. Bu dünyanın heç bir bucağına sığmayan sən anamız Azərbaycanın bətninə sığa bildin. O qüdrətin, böyüklüyün əlamətiydi ki zaman-zaman səni bizdən qoparmaq, doğulduğun yeri öz adlarına çıxmaq istəyənlər oldu. Lakin tək doğma qardaşının (Şahxəndan) elə Şamaxıda, onun şərəfinə adlandırılan "Şahxəndan"da torpağa tapşırılması sənin kimliyinlə bağlı fərziyyələri alt-üst etdi. Hətta sən el dilində "Şaxəndan"a çevrilən bu müqəddəs qəbiristanlıqda dəfn olunmanı vəsiyyət etdin:

*Mən öləndə "Şaxəndan"da basdırın,*
*Çünki onun şahid-i xəndanı var.*

Səni Seyid Nəsimi, Seyid İmadəddin, Mir İmadəddin kimi də tanıdılar. Gənclik illərindən ömrünün sonuna qədər əsl keyfiyyətin sığmazlıq idi. Şamaxıda mükəmməl təhsil aldın. Lakin bununla kifayətlənməyərək biliklərini daha da genişləndirmək istədin – daha geniş məkana, hürufiliyə yönləndin. Kainatı əbədi, Allahı hər bir zərrəcikdə mövcud olan, insanda yaradılmışların ən yaxşısının bəyanı, insanı isə ilahinin surəti və həqiqətin açarı hesab edən təriqətin ardınca getdin. Bu zaman sabit din təfəkkürü ilə uyuşmayan məqamları şeirlərinə gətirdin. Bu, şair olan doğmaca qardaşını narahat etməyə başladı. "Julidəmu" təxəllüsü ilə yazan Şahxəndan sənə məktub yazıb qəlbindəki sirləri şeirə gətirməməyə, məxfiliyə riayət etməyə səslədi. Cisminə, təninə sığmayan səni isə heç bir qorxu məqsədindən yayındıra, tutduğun yoldan ayıra bilmədi.

Əvvəlcə İslam dinində mövcud təriqətlərdən biri olan bəktaşiliyə yönəldin. Anadilli divanının əlyazma nüsxəsində Bəktaşi təriqətinin nümayəndələri arasında hörmət sahibi olduğun, "Hüseyni" təxəllüsü ilə yazdığın şeirlərinin həmin mühitdə sevilərək oxunduğu, özünə geniş oxucu kütləsi toplaya bildiyi qeyd edilib. Həllac Mənsura sevgisinə görə "Hüseyni" olan Nəsimi, hətta qəlbinə belə sığmayan bir sevgi ilə qarşılaşdı. Tezliklə aralandı bəktaşilərdən. Tale onu gedilməmiş başqa yollara yönəltdi. Gözləmədiyi məqamda hürufiliyin cazibəsinə qapıldı. Hələ 16-17 yaşlarında tanış olduğu hürufilərin başçısı Şeyx Fəzlullah Nəiminin – ustadının bəlağətli və təsirli nitqi gənc Nəsimini heyran etdi. Əsl adı Əli idi, ona "Seyyid" adını əziz müəllimi Nəimi verdi, o da heyranı olduğu ustadının təxəllüsünə uyğun olaraq özünə "Nəsimi" təxəllüsünü götürdü.

Bəs ən nəhəng hürufi şeyxi kimi tanınan Fəzlullah Nəimi kim idi? Təbrizdə doğuldu. Zəmanəsinin əsas elm sahələrini yeniyetməlik illərində mükəmməl şəkildə qavradı. Əsl peşəsi papaqçılıq idi. Lakin tale onu daha ali, mötəbər bir məqama – yüzlərlə, minlərlə beyinə yeni ideyalar, fikirlər bağışlamaq, təzə bir fəlsəfi təlim yaratmaq vəzifəsinə yüksəltdi. Bu məqamın mərkəzində İnsan dayanırdı. İnsan bütün varlıqların əşrəfi hesab edilirdi. Ona görə də bu ideyanın davamçıları qüsursuz olmağa, forma və məzmun vəhdətindən qopmamağa çalışırdılar.

Nəiminin Tanrının insanla vəhdəti ideyası hürufiliyin ana kitabı, baş dərsliyi olan "Cavidannamə"ni ortaya çıxardı. Bu əsər təriqət tərəfdarları arasında geniş yayıldı, əl-əl gəzdi, Nəsiminin də zəkasına işıq saldı. Gənc Nəsiminin təsəvvürlərində İnsan ucaldı. İnsan sifətində açıq-aşkar ALLAH sözü yazıldığına şübhə qalmadı.

Hürufiliyə qəlbi ilə bağlanan Nəsimi şeirləri ilə "Şah-i kişvər" – ölkə padşahı (məcazi mənada) səviyyəsinə yüksələ bildi. Sıraları sıxlaşan, əhatə dairəsi daha da genişlənib mütəşəkkil bir görkəm alan hürufilik hakimiyyət üçün təhlükə mənbəyi idi. Sifarişlə fəaliyyət göstərən ilahiyyatçılar "Özünü dərk edən, əslində, Rəbbini dərk edər" ideyasını yayan hürufiləri xalq arasında nüfuzdan salmaq üçün bütün mümkün bəhanələrdən yararlandılar.

Onların çoxdankı arzusu yerinə yetdi. Teymurləngin əmri ilə oğlu Miranşah hürufi mütəfəkkiri Fəzlullahı dustaq götürərək qədim Naxçıvana gətirdi. Nəimi ona edilən amansız işgəncələr qarşısında sonacan mətanətini qorudu, təslim olmadı, məsləkdaşlarını satmadı. Amma amansız hökmdar öz qərarını çoxdan vermişdi. İnsanları dərin fəlsəfəsi və bəlağətli nitqi ilə ovsunlayan bu adam məhv edilməli idi. Yalnız bundan sonra "gələcək təhlükələrin" xilası mümkün idi. Belə də oldu. Nəimi bütün müridlərinə



dərs olsun deyə, ən amansız ölümə layiq bilindi – Əlincə qalası qarşısında at quyruğuna bağlatdırılaraq daşlara çırpıla-çırpıla tikə-parça edildi. Amma yenə ümid var idi. Axı onun davamçıları hələ sağ idi. Xüsusən də ən çox sevdiyi, peyğəmbərlərə bərabər tutduğu şagirdi Nəsimi...

*Qeyd:* Nəimi Əlincədə qətlə yetirildikdən sonra onun cənazəsi Culfa rayonunun Xanəgah kəndində dəfn edilib. Sonralar qəbrin üzərində ucaldılan, dövlət qayğısı ilə bərpa olunan "Xanəgah" adlı abidə bu gün ziyarətgaha çevrilib.

Nəimi müdrik insan idi. O, ardıcıllarını gələcək təhlükələrdən qorumaq istəyirdi. Qətlindən öncə "Vəsiyyətnamə"sini yazdı və ölməzdən əvvəl azadlıqdakı silahdaşlarına ötürə bildi. Bu məktubda Nəimi bütün müridlərinə qəsd barədə xəbərdarlıq edir. Bu qayğıkeş müəllim, alicənab insan onu da vəsiyyət edir ki, harada olsanız elə edin ki, mənim müridim olmağınızı bir kimsə bilməsin. Sonda uzaq, dağlıq yerlərə çəkilib adlarını dəyişməyi, dərvişlik mərasimlərindən əl çəkib hər dəm namaz qılıb bir peşəyə bağlanmalarını məsləhət görür, təhlükənin nə qədər qaçılmaz olduğunu anladırdı.

Nəiminin sevimli şagirdi Nəsimi "Vəsiyyətnamə"yə axıra qədər əməl etmir. Anadoluya gedib burada xəlvətə çəkilmək əvəzinə yenə öz ideyalarını yayır, yeni fikirlərini kağıza köçürür, ətrafına yeni tərəfdarlar toplayır, özünə dost da qazanır, düşmən də.

Canına, qanına hopmuş sığmazlıq elə bir "sağalabilən xəstəlik", "keçici ağrı" olmadığı kimi, Nəiminin tələb etdiyi dəyişiklik, başqalaşmaq da ona xas olan xüsusiyyət deyildi. Məkana və zamana sığmayan bir filosof, bir şair "Vəsiyyətnamə"nin tələblərinə necə sığa idi?

Elə yazdığı "Sığmazam" adlı məşhur şeiri də Nəsiminin mükəmməl avtoportreti idi. Nəsiminin mübariz ideya və çağırışlarının, dövrəzamana sığmayan qüdrətinin ifadə olunduğu şeirlə Nəsimi etiraf edir ki, məsləki, fikri, qayəsi-ayəti onun özündən də gülcü və uludur.

*Məndə sığar iki cahan, mən bu cahana sığmazam,*
*Gövhəri la məkan mənəm, kövnü məkanə sığmazam.*
*Gərçi bu gün Nəsimiyəm, haşimiyəm, qureyşiyəm,*
*Bundan uludur ayətim, ayətü-şanə sığmazam.*

Anadoluda da dərin köklər atan hürufilik və bəktaşiliyin nüvəsində siyasi niyyətlər olması hakimiyyəti bu yolun yolçularıyla sərt davranmağa vadar etdi. Sultan Murad zamanında bəktaşiləri, sadəcə, asmır, başlarını üzməklə kifayətlənmir, onların neçəsinə od vurub diri-diri yandırırdılar. Vəziyyətin get-gedə mürəkkəbləşdiyini görən Nəsimi buranı tərk edir, üz tutur İraqa, Suriyaya...

Üç dildə – türk, fars və ərəbcə şeirlər yazan və "Divan"lar bağlayan Nəsimi üçün məfkurəsini yaymaq o qədər də çətin deyildi, çünki onun dil, nəzm məhdudiyyəti yox idi. Qafqazda, Anadoluda olduğu kimi, ərəb aləmində də onu ehtiramla qarşılayırdılar. Lakin yenə də, tərəfdarları, ardınca gedənləri çox olduğu kimi, onu sevməyən, kin bəsləyənlər də az deyildi.

Nəsimi taleyin hökmünə qalib gələ bilmədi. Şair və hökmdar Hüseyn Bayqaranın vəziri Əmir Kəmaləddin Hüseyn "Məcalis ül-üşşaq" ("Aşiqlərin yığnaqları") adlı əsərində "Haqq aşiqi" Nəsimini qətlə aparıb çatdıran səbəbləri açıqlayır və yazırdı: *"... Batindən zahirə çıxan nəfəs tufan kimi onun könül dənizini cuş-ü xüruşa gətirdi. O, dəryanın dalğalanmasından şairin hərfləri və kəlmələri cəvahiri-əsrar kimi kənara töküldü. Ayıq zahirpərəstlərin nəzəri həqiqət şahlarına layiq olan o cəvahirlərə düşdükdə, şairin sözünü anlamadılar. Onu cəzalandırmaq istədilər. Hələbdə zahiri üləmadan bir münkir ondan soruşdu: "Bu cavanın üzündə nə görürsən ki, bu qədər həyəcan və məstlik göstərirsən?" Cavab verdi ki, onun üzünün aynasında Haqqın surətini müşahidə edirəm. Münkir dedi: "Biz də o cavanı görürük, bəs nə üçün o surət bizim gözümüzə görünmür?" Şair dedi: "Bu dövlət quşu sizin qabiliyyətinizi özünə yuva etmədi və bu səadət quşu sizin himmətinizin başına kölgə salmadı".* Bu fəsil Nəsiminin bir qəzəli misal gətirilərək yazılıb.

Nəsiminin necə və kimlə ailə qurması ilə bağlı suala dürüst və dəqiq cavab verən mənbə yoxdur. Amma ehtimal olunur ki, Suriyada məskunlaşdığı vaxtlarda ev-eşik sahibi olub. Oğluna da yenə müəlliminin pak adını yaşatmaq üçün Fəzl adı verib. Onun nəvə-nəticələri, nəsimilər nəsli bu gün də Suriyada ömür sürməkdədirlər...

*Haqqı görən gözlər gərəkdir ki, mənim üzümü görsün,*
*Xudbin olan gözlər Allahın üzünü necə görə bilər?!*
*Ey Çöhrəsi Nəsiminin gözlərinə işıq verən,*
*Məqsədi Səni görmək olan Səndən savayı kimi görər?!*

Rəvayət edilir ki, Hələbdə özünü Nəsimi elan edən bir cavan bu qəzəli oxuyurmuş. Onu tutub çəkirlər dar ağacının ayağına. Bu zaman Nəsimi həmin meydana yetişir, həqiqəti açır, şagirdinin onu xilas etmək naminə bu şeirə sahib çıxdığını bildirir və günahsız gənci azadlığa buraxdıraraq özü divana təslim olur. Nəsimi üçün çoxdan qurulan tələlər, münasib fürsəti gözləyənlər bununla da öz arzularına çatırlar.

Şairin edamı haqqında bir çox mənbələrdə, eləcə də onbeşinci yüz ilin ərəb tarixçisi Müvəffəqəddin Əhməd ibn İbrahim əl-Hələbinin "Künuz üz-zəhəb və tarix-i Hələb" ("Qızıl xəzinələri və Hələb tarixi") kitabında şairi mühakimə edən 5 nəfərin adı çəkilir. Həmin mənbəyə əsasən məhkəmə üzvlərindən biri ağır hökmü verməzdən əvvəl onu sübut etməyin gərək olduğunu söyləyir, başqa biri Nəsimini kafir elan edərək tövbəsinin qəbul edilməməsinə və öldürülməsinə fitva verir, digəri bir parça kağızda məhkumun öldürülməsini yazır. Lakin hətta bundan sonra da digər məhkəmə üzvləri qərarla barışmaq istəmir, ölüm hökmü çıxarmaqdan imtina edirlər. Məhkəmə qərar qəbul etmədən dayandırılır, Nəsimi yenidən zindana aparılır. Əlbəttə ki, hər misrasının, hər beytinin ardında "Qurani-Kərim"in hikmətləri dayanan Nəsimiyə kafir damğasını vurmaq elə də asan deyildi. Lakin bu hikmətləri dinə əks-müddəalar kimi yozaraq elə müqəddəs "Quran"ın özündən, şəriətin əsaslarından, risalələrdən əks-müddəalar gətirmək də çətin deyildi.

Sultan Müəyyədinin əmri ilə Nəsiminin dərisi soyularaq cəsədi Hələbdə 7 gün əhaliyə nümayiş etdirilir. Edam zamanı Nəsimiyə ətrafdakılardan birinin kinayə ilə "Əgər Allahsansa, bəs rəngin niyə saralır?" sualına rəvayətlərdə şairin verdiyi məğrur cavab qalır: "Mən əbədiyyət üfüqlərində doğmuş eşq günəşiyəm. Günəş qürub edən zaman saralır". Lakin hamı bilir ki, illər, əsrlər onun qəlblərdəki əbədiyyət heykəlini saralda, dərin poetik-fəlsəfi irsini susdura bilmədi. Və onun ölüm ayağında, həyatının ən son məqamında söylədiyi *"Zahidin bir barmağın kəssən dönüb haqdan qaçar, Gör bu gerçək aşiqi sərpa soyarlar, ağrımaz"* misraları Nəsiminin həyatı, sənəti, əqidəsi yolunda şəhidlik zirvəsinə yüksəlməyin ibrətamiz nümunəsidir.

"Ənəlhəq" ideyasını ədəbi təlim səviyyəsinə çatdıran İmadəddin Nəsimi keşməkeşli həyatı, nəsihətçilikdən uzaq, mübarizə ruhlu şeirləri ilə bu gün də onun adını daşıyan ədəbi məktəbin davamçılarına ruh verir.

Prezident cənab İlham Əliyevin "Azərbaycan Respublikasında 2019-cu ilin "Nəsimi ili" elan edilməsi haqqında", eləcə də şairin 650 illik yubileyinin qeyd edilməsi haqqında tarixi sərəncamları ölməz sənətkarın həmişəyaşar ideallarının xalqımıza daha geniş miqyasda çatdırılmasına geniş meydan açır.

Hazırda Nəsiminin qərib məzarı Suriyanın hər an müharibə təhlükəsi ilə üzləşdiyi Hələb şəhərindədir. Məncə, doğulub böyüdüyü, təhsil aldığı, doğma Vətəninə – Azərbaycana "qayıtmaq" şairin özünün də ən böyük arzusu olardı. Onun ruhu yalnız öz müstəqil Vətənində rahatlıq tapa bilər...

✍ **Güntac ŞAHMƏMMƏDLİ**

*Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin təşkilatçılığı ilə "Məktəbin idarə olunması" mövzusunda 5 günlük təlimə start verilib. Təlimdə 100-dən artıq məktəb direktoru və təlim-tərbiyə işləri üzrə direktor müavinləri iştirak edir.*

## Təlimə start verilib



Təlimin keçirilməsində məqsəd ümumtəhsil məktəblərində direktorların peşəkarlıq səviyyəsinin artırılmasından, onların yeni bilik, bacarıq və səriştələrə, təhsil aldığı ixtisas üzrə nəzəri və praktik biliklərə tam yiyələnmələrindən, müasir təfəkkürlü mütəxəssis hazırlanmasından ibarətdir.

Bakıdan dəvət olunmuş Azərbaycan Müəllim İnkişafı Mərkəzinin təlimçi-müəllimi Qoşqar Məhərrəmov tərəfindən aparılan təlimin ilk günü "Məktəbin idarə olunması", "İnsan resurslarının idarə edilməsi", "Liderlik" mövzuları barədə danışıb.

Qeyd olunub ki, gənc nəslin əsl vətəndaş, yaradıcı düşünən şəxsiyyət kimi yetişdirilməsi baxımından ümumtəhsil məktəblərinin idarə olunması və fəaliyyətinin təşkili müstəsna əhəmiyyət kəsb edir. Təhsil müəssisələrinin innovasiya rejiminə keçirilməsi, təhsilin idarə olunması sisteminin tətbiqi məktəbin idarə edilməsinə yeni yanaşmanı aktuallaşdırır.

Qeyd edək ki, növbəti mərhələlərdə məktəb direktorları və təlim-tərbiyə işləri üzrə direktor müavinlərinə "Müəssisədaxili ünsiyyət qaydaları", "Valideynlərlə əməkdaşlıq yolları", "Dərsin planlaşdırılması" mövzularında təlim keçiriləcəkdir.

Təlimin sonunda iştirakçılara sertifikatlar veriləcəkdir.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

## Uşaqlar tibbi müayinədən keçirilib

Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanasının həkim briqadası Culfa rayonunun Gülüstan kəndində uşaqları kütləvi profilaktik tibbi müayinədən keçirib.

Pediatr, endokrinoloq, stomatoloq, nevropatoloq, cərrah və laborantlardan ibarət briqada kəndin həkim ambulatoriyasında 20 nəfər uşağa tibbi xidmət göstərib, aşkar edilmiş bəzi xəstələrin əlavə müayinə və müalicəsi üçün Mərkəzi Uşaq Xəstəxanasına gəlmələri məsləhət görülüb. Valideynlər arasında səhiyyə maarifi işi aparılıb, "Naxçıvan Muxtar Respublikasında uşaqların icbari dispanserizasiyadan keçirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı" haqqında məlumat verilib. Uşaqların sağlamlığının qorunmasında səhiyyə müəssisələri ilə valideynlərin birgə fəaliyyətinin zəruriliyi qeyd edilib.

Xəstələrə pulsuz dərman və sarğı materialları verilib, peyvəndlərin təqvim üzrə aparılması və dispanserizasiya işinin təşkili, tibbi sənədləşmənin düzgün həyata keçirilməsi ilə əlaqədar ambulatoriya işçilərinə metodik köməklik göstərilib.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

*Kiçik, böyük hər kəsin sevdiyi dondurma faydalı olmaqla yanaşı, yay aylarında yeyilə biləcək ən yaxşı desertlərdən biridir. Hava çox isti və nəmli olduqda soyuq içki və ya dondurma kimi insana zövq verə biləcək bir şey yoxdur. Xüsusilə də bu məhsullar ekoloji cəhətdən təmiz xammaldan hazırlanmış yerli istehsal olduqda...*

*Hamının sevə-sevə yediyi, 3 min ildir ki, bizə isti havada buz kimi sərinlik gətirən bu ən sevimli desert haqqında çoxsaylı sirlər mövcuddur. Onun yaranma tarixi də maraqlıdır.*

# Yayın ən ləziz və sərinləşdirici deserti

## *Sağlam qidalanmaq istəyənlər yerli məhsullara üstünlük verirlər*




Əfsanəyə görə, Roma imperatoru Neon qladiator döyüşlərini seyr edərkən şirniyyat yeməyi çox sevirmiş və ən dadlı şirniyyatı hazırlayan aşpazı mükafatlandırırmış. Səhər yeməyi hazırlayanlardan biri dağın yüksək yerlərindən qar yığıb, bir qabda yerləşdirdi və üzərinə bal, meyvə parçaları qoyub Neona təqdim etdi. İmperator bu dadlı şirniyyatı çox bəyəndi. Elə həmin gün ilk dondurma yarandı.

Bu haqda gəzən rəvayətlərdən birində deyilir ki, əfsanəvi I Karl keçirdiyi növbəti banket zamanı özünün yüksək səviyyəli və varlı qonaqları üçün elə qida hazırlamaq istəyir ki, onların hamısını təəccübləndirsin. Onun aşpazı bu istəyi yerinə yetirmək üçün nəhayət qızıl resepti əldə edir. O, gələn qonaqlara soyuq deserti təqdim edir. Bu desert hamıya yeməkdən çox yağan qarı xatırladır. Onu digərlərindən xüsusi kremi və dadına doyulmaz şirinliyi fərqləndirirdi. Qonaqlar bundan xüsusi ləzzət alırlar. Karl aşpazını çağıraraq bu sirri heç kimə açmamağı əmr edir. Çünki istəyirdi ki, bu yemək yalnız kral süfrəsində təqdim olunsun. I Karlın ölümündən sonra resept açıqlanır.

Dondurma haqqında ilk məlumatlara eramızdan əvvəl Misir sivilizasiyasında rast gəlinir. Tapıntılarda isti yay mövsümündə buzdan istifadə olunduğunu göstərən bir çox faktlar öz əksini tapıb. Bu siyahıda Çin, Mesopotamiya kimi qədim ölkələr də var. Həmin ölkələrdə aşpazlar öz reseptlərini hazırlayırmışlar. Soyuq və təravətləndirən içkilərin əsas mərkəzi isti Şərq ölkələri olduğu üçün avropalılar Şərqin qida mədəniyyətini öyrənməyə başladılar...

Böyük ədib, yazıçı-demokrat Mirzə Cəlilin uşaqlıq və yeniyetməlik dövrünün təəssüratları altında qələmə aldığı "Buz" hekayəsindən də aydın olur ki, hələ XIX əsrin axırları-XX əsrin əvvəllərində Naxçıvan şəhərinin bazarlarında, küçə və meydanlarında buz satışı təşkil olunar və adamlar ondan müxtəlif məqsədlər üçün istifadə edərdilər. Müəllif yazır: *"Hər bir yay fəsli küçələrdə arabalarda, buz sallarını görəndə, bir tərəfdən o buzu şampanskilərə və ləzzətli marojnalara işlədən xoşbəxtlər gözümün qabağına gəlir"*. Mirzə Cəlilin bu sözləri səksəninci illəri yadıma salır. Çünki bu dövrdə bizim ondan elə də çox fərqimiz yox idi. Biz də gözümüzü Rusiyaya, ya da ki paytaxt Bakıya yönəldir, yayda oradan nə zaman dondurma gələcəyini gözləyirdik. Uzaqdan gələn dondurma yayın istisində bir neçə dəfə əriyib donduqdan sonra necə "dadlı" olardı, onu da yeyənlər bilər. Evdə dondurma hazırlamağa cəhd edəndə də onu yeyənin həmin gün mütləq qızdırması yüksələrdi. Çünki bu üsulla hazırlanan dondurma daha çox buza oxşayardı. Bir sözlə, nə gözümüz, nə də ki könlümüz doyardı.



Bu gün isə muxtar respublikamızda dondurma istehsalı ilə məşğul olan "Danyeri" istehsal və xidmət sahəsi, "Fərda" unlu-qənnadı məmulatları və dondurma istehsalı müəssisəsi kimi ixtisaslaşmış müəssisələr fəaliyyət göstərir.

Qeyd edək ki, yerli istehsal məhsullarımız olan müxtəlif çeşidli – qaymaqlı, plombir, meyvəli-giləmeyvəli, ətirli dondurmalar ekoloji təmiz, əlavə kimyəvi qatqılar vurulmadan hazırlandığına görə çox dadlı və keyfiyyətlidir. Belə dondurmalar qida təhlükəsizliyi baxımından daha etibarlıdır. İstehsalında müasir texnologiyadan istifadə olunmaqla, eləcə də məhsulun saxlanma müddətinin artırılmasına zəmanət verən konservantlar, stabilizator-emulqatorlar və digər qida əlavələri standartlara uyğun olaraq əlavə edilməklə yüksək keyfiyyətə nail olan yerli müəssisələrimizin məhsullarına ölkə daxilində də tələbat günbəgün artmaqdadır.

Naxçıvan şəhərindəki belə müəssisələrdən biri olan "Nur qida"nın ləziz dondurmaları 16 ildir süfrələrin bəzəyinə çevrilib. Bu dondurmalar həm keyfiyyəti, həm də sərfəli qiyməti ilə seçilir. İstehsal müəssisəsi artıq uzun illərdir ki, məhsulları ilə əhaliyə yüksək xidmət göstərir, həm də muxtar respublika iqtisadiyyatına töhfə verməyə çalışır.

2003-cü ildə yaradılan müəssisədə keyfiyyətli məhsul istehsalı üçün hər cür imkanlar vardır. Buradakı şərait və istehsal prosesi ilə yaxından tanış olmaq üçün ötən günlərdə adıçəkilən ünvanda olduq. Dondurma mövsümü müəssisədə iş prosesini də sürətləndirib. İşçilər gündən-günə artan tələbatı ödəmək üçün səylə çalışırlar. Müəssisədə xammal və hazır süd məhsullarının istehsalı üçün müasir standartlara uyğun texnoloji avadanlıqların quraşdırılması rəqabətqabiliyyətli məhsul istehsalına imkan verir.

Müəssisənin rəhbəri Razim Rzayev bizimlə söhbətində bildirdi ki, muxtar respublikada sahibkarlığın inkişafı istiqamətində mühüm addımların atılması təqdirəlayiq haldır. Yaradılan əlverişli biznes mühiti onun da müəssisə quraraq sahibkarlıq fəaliyyətinə başlamasına stimul olub.

Müəssisədə olarkən istehsal prosesini də izləmə imkanı əldə etdik. Burada ekoloji cəhətdən təmiz, keyfiyyətli yerli xammallardan istifadə olunur. Demək olar ki, əlavə kimyəvi maddələr vurulmadan hazırlanan bu dondurmalara dadına və keyfiyyətinə görə tələbat yüksəkdir. Müəssisədə istehsal avtomatik şəkildə mərhələlərlə həyata keçirilir. Qəbul edilən təbii süd əvvəlcə nasos vasitəsilə qazanlara vurulur, daha sonra 82 dərəcə temperaturda bişirilir. Sonrakı mərhələdə soyuq su vasitəsilə temperatur 60 dərəcəyə endirilir. Xüsusi avadanlıqla parçalanan süd saxlama qazanlarına ötürülür, mənfi temperaturda 12 saatdan az olmayaraq saxlanılır. Daha sonra taralara qablaşdırılır, üzərinə tərkibi, istehsal tarixi və istifadə müddəti göstərilən etiket vurulur. Müəssisədə, ümumilikdə, 5 çeşiddə dondurma istehsal olunur. 0,35, 0,55, 0,65, 0,5 qram və 1 kiloqram çəki taralarda bazara çıxarılan dondurmalar geniş alıcı kütləsi qazanıb. Dondurma çeşidlərinin ayrı-ayrı ünvanlara vaxtında çatdırılması işi də diqqətdə saxlanılır. Belə ki, tələbata uyğun istehsal edilən məhsullar gün ərzində marketlərə, iaşə obyektlərinə paylanılır. Daşınmalar zamanı soyuducu kameralarla təmin olunmuş nəqliyyat vasitələrindən istifadə edilir, mütəmadi olaraq istehlakçıların tələbləri və fikirləri öyrənilir.

Dondurmanın faydalarından da söhbət açan müsahibim deyir ki, yerli məhsulların tərkibi zülal və karbohidratlarla zəngindir: A, B, C, D və E vitaminləri, həmçinin kalsium, kalium, fosfor, maqnezium, dəmir və sink kimi minerallar ehtiva edir. Xüsusilə süd içməyən, yoğurt və pendir xoşlamayan uşaqlar üçün əla bir qida qaynağıdır. Dondurmanın xam maddəsi süd olduğundan, bəzi hallarda uşağın protein və kalsium ehtiyaclarını qismən ödənilməsi üçün də yararlıdır. Bundan əlavə, iştahasız, orqanizmi zəif, eyni zamanda aktiv fiziki hərəkətdə olan uşaqlar üçün xoş və sağlam bir qidadır.

Müsahibim onu da bildirir ki, dondurma satın alındıqdan dərhal sonra istifadə olunmasa, dondurucuda saxlanılmalıdır. Yumşaq, açıq qablarda satışda olan dondurmalar tez bir zamanda yeyilməlidir. Dondurma yenidən dondurulmamalıdır. Qablaşdırılmış dondurmalarda deformasiyaların olmamasına da diqqət yetirilməlidir.

✍ **Ramiyyə ƏKBƏROVA**

## Naxçıvan Muxtar Respublikası üzrə 2019-cu ildə taxıl biçininin yekununa dair məlumat

| S/№ | Şəhər və rayonlar | Biçiləcək taxıl sahəsi (hektar) | Biçilən taxıl sahəsi (hektar) | Məhsul istehsalı (ton) | Məhsuldarlıq (sentner) |
|---|---|---|---|---|---|
| 1. | Naxçıvan şəhəri | 1035 | 1035 | 3011 | 29,1 |
| 2. | Şərur rayonu | 4127 | 4127 | 13947 | 33,8 |
| 3. | Babək rayonu | 10610 | 10610 | 33707 | 31,8 |
| 4. | Ordubad rayonu | 1685 | 1685 | 4785 | 28,4 |
| 5. | Culfa rayonu | 6553 | 6553 | 18993 | 29,0 |
| 6. | Kəngərli rayonu | 5210 | 5210 | 15316 | 29,4 |
| 7. | Şahbuz rayonu | 1616 | 1616 | 4437 | 27,5 |
| 8. | Sədərək rayonu | 2472 | 2472 | 8788 | 35,6 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **33308** | **33308** | **102984** | **30,9** |

*İdman*

## Məşqçimiz seminarda iştirak edib



Şüvəlan qəsəbəsində yerləşən Ağır Atletika Akademiyasında Beynəlxalq Ağır Atletika Federasiyasının (IWF) İnkişaf Proqramı çərçivəsində Azərbaycan Ağır Atletika Federasiyasının (AAAF) təşkilatçılığı ilə məşqçilər üçün seminar (Coaching Seminar in the framework of the IWF Development Program 2019) təşkil olunub. Tədbirdə məruzəçilər qismində dünyaca məşhur ağır atletika mütəxəssisləri Kolin Bakli (İrlandiya) və Eduard Andryuşkeviç (Latviya) çıxış ediblər. Nəzəri və praktik seminara Azərbaycanın müxtəlif regionlarından olan 30-a yaxın məşqçi qatılıb.

Üç gün davam edən seminarda Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin nəzdində fəaliyyət göstərən Şərur rayon ağır atletika bölməsinin məşqçi-müəllimi Şəfi Hüseynov da iştirak edib.

Seminar zamanı "Yeni nəsil məşqçiliyi", bərpa tapşırıqları, idmançıların yerinə yetirdikləri klassik hərəkətlərin alman sistemi əsasında video texniki-təhlili, yığma komandanın təlim-məşq proseslərinin izlənməsi, Avropa Ağır Atletika Federasiyasının məşqçilik strukturu (EWF Ağır Atletika Akademiyası) və digər aktual məsələlər üzrə nəzəri və praktik sessiyalar keçirilib.

Bundan başqa, dünya ağır atletikasında məşqçiliklə bağlı baş verən yeniliklər barədə məlumat verilib. Sıx interaktivlik şəraitində keçən mühazirələrdə çox sayda suallar cavablandırılıb, yerli məşqçilərin fikirləri dinlənilib.

## Ağır atletlərimiz ölkə birinciliyinin qalibi olublar



*İyul ayının 27-28-də Şüvəlan qəsəbəsindəki Ağır Atletika Akademiyasında keçirilən 15 və 17 yaşadək yeniyetmə oğlan və qızlar arasında Azərbaycan birinciliyinə yekun vurulub.*

Yarışda ölkənin bütün şəhər və rayonlarından idman cəmiyyətlərini, klublarını, mərkəzlərini, Uşaq-gənclər idman məktəblərini təmsil edən 150-yə yaxın gənc atlet iştirak edib. Yarışın keçirilməsində məqsəd ölkənin ən güclü yeniyetmə atletlərinin müəyyən olunması, ağır atletika idman növünün təbliğ və inkişaf etdirilməsi, dostluq əlaqələrinin möhkəmləndirilməsi, idmançıların ustalıq səviyyəsinin artırılması, həmçinin qarşıdakı beynəlxalq yarışlara hazırlıq və seçimdir.

Birincilikdə Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin nəzdində fəaliyyət göstərən Şərur rayon ağır atletika bölməsinin yetirmələri də iştirak ediblər.

17 yaşa qədər olan oğlanlar arasında mübarizə aparan Tərmenxan Babayev yenə fəxri kürsünün ən yüksək zirvəsinə qalxıb. Belə ki, 89 kiloqram çəki dərəcəsində idmançımız, ümumilikdə, 323 kiloqram ağırlığın (146+177 kiloqram) öhdəsindən gəlməyi bacarıb və qızıl medal qazanıb.

55 kiloqram çəki dərəcəsində kürpücük üzərinə çıxan idmançımız Gülcahan Əliyeva isə ümumilikdə, 90 kiloqramı (37+53 kiloqram) ram edib və birinciliyin qalibi olub.

Sonda qalib idmançılarımız təşkilatçılar tərəfindən mükafatlandırılıblar.

## Basketbol üzrə yoldaşlıq görüşü

Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya İdman Kompleksində "Zərərli vərdişlərə yox deyək, həmişə sağlam olaq!" devizi altında basketbol üzrə yoldaşlıq görüşü keçirilib.

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Basketbol Federasiyasının birgə təşkil etdiyi görüşdə "Naxçıvan" və "Sədərək" komandaları üz-üzə gəlib. Görüş birincilərin 47:25 hesablı qələbəsi ilə başa çatıb.



Sonda idmançılar mükafatlandırılıblar.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

***İtmişdir***

Əliyeva Zöhrə Hacəli qızına məxsus 813A inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Mətanət Məmmədova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1495. Sifariş № 507